**ATƏT/DTİHO**
**Azərbaycan Respublikası**
**2005-ci il Milli Məclisə Seçkilərdə**
**Seçkiləri Müşahidə Missiyası**
**6/10 V.Mustafazadə küç. 3-cü mərtəbə**
**İçəri Şəhər, Bakı AZ 1000**
**Tel: +994 12 4975708**
**Faks: +994 12 4975715**
**e-mail: office@odihr.az**

# ARALIQ HESABATI No. 3
## 8 oktyabr – 21 oktyabr 2005

**Xülasə**


- Yüksək səviyyəli dövlət rəsmiləri ATƏT/DTİHO SMM-ə bildirmişlər ki, icraedici orqanlar qanunun və 11 may Prezident sərəncamının əksinə pozaraq seçki prosesinə müdaxilə etməkdə davam edirlər.

- Mərkəzi Seçki Komissiyası (MSK) müntəzəm olaraq iclaslarını keçirməkdə davam edir. Lakin bu iclasların iş mühiti və kollegiallıq pisləşməyə başlamışdır. ATƏT/DTİHO SMM-in seçici siyahılarının yeniləşməsi və seçici vəsiqələrinin paylanması barədə MSK-dan aldığı məlumatlar bir-birinə uyğun gəlmir və ziddiyyətlidir.

- Yeni şəxsiyyət vəsiqələrinin paylanmasının uğursuz həyata keçirilməsi və gecikmə halları hüququ olan seçiciləri səs vermə hüququndan məhrum edə bilər. Seçici vəsiqələrinin səs vermək üçün zəruri olub-olmaması məsələsi hələ də aydın deyildir.

- Namizədlər bütün ölkə ərazisində çoxlu sayda yürüş mitinqləri keçirməkdə davam edirlər. Lakin bu kampaniya geniş yayılmış polis həbsi və müxalifətdən olan partiyaların üzvlərinə və tərəfdarlarına edilən hədə-qorxu yolu ilə pozulur.

- Seçki komissiyaları dəfələrlə əsaslı qərar qəbul etmədiyindən və ya şikayətə baxılması üçün qanunla müəyyən olunmuş vaxt məhdudiyyətlərinə əməl etmədiklərindən şikayətlərə lazımı qaydada cavab vermirlər.

- Demokrat Partiyasının sədri və hazırda namizəd olan Rəsul Quliyevin 17 oktyabrda Azərbaycana gözlənilən gəlişi iri miqyaslı milli təhlükəsizlik əməliyyatının həyata keçirilməsinə səbəb oldu. Daxili İşlər Naziri "radikal müxalifəti" təhlükəsizlik qüvvələrinə qarşı güc işlətməyi planlaşdırmaqda günahlandırdı və bütün ölkə ərazisində çoxsaylı həbslər baş verdi. Hökumət öz hərəkətlərinə hakimiyyətin güclə dəyişdirilməsinin qarşısını almaq adı ilə haqq qazandırdı.

- 17 oktyabr əməliyyatından sonra İqtisadi İnkişaf Naziri və Səhiyyə Naziri vəzifələrindən azad edildi və hakimiyyətin güclə ələ keçirilməsində şübhəli hesab edilərək həbs olundular.

- Dövlət tərəfindən maliyyələşdirilən televiziya kanalları pulsuz efir vaxtını dörd əsas siyasi partiya və blok arasında bölüşdürməkdə davam edirlər, lakin xəbər proqramları hazırda hakimiyyətdə olan siyasi qüvvələrin xeyrinə fəaliyyət göstərir. 17 oktyabr hadisələri ilə əlaqədar olaraq, AzTV müxalifəti təmsil edən Azadlıq blokunun namizədlərinin pulsuz və ödənişli efir vaxtının canlı yayımlamasını 3 gün ərzində dayandırdı və yayımlanmadan əvvəl seçkiqabağı televiziya çıxışlarının məzmununu yoxlamağa başladı.

- Seçki ilə bağlı hadisələri izləyərkən dəfələrlə jurnalistlərin saxlanılması və ya onlara hücum edilməsi halları baş vermişdir.

## I. Seçkinin İdarə Edilməsi

MSK müntəzəm olaraq iclaslarını keçirməkdə davam edir, lakin iclasların iş mühiti və kollegiallıq pisləşmişdir və bu da siyasi gərginliyin səviyyəsinin artmasına dəlalət edir. Oktyabrın 18-də üzvlər gündəlikdə duran məsələlər üzərində razılığa gələ bilmədiklərindən və Sədrin təklifini dəstəkləyənlərin sayı kafi olmadığından, MSK-nın növbəti iclası təxirə salındı. Mövqelər AzTV-nin namizədlərin çıxışlarının canlı yayımının dayandırılması (aşağıya bax) barəsində 17 oktyabr tarixində verdiyi qərarı üzərində parçalandı. Komissiyanın müxalifəti təmsil edən üzvləri bu məsələnin gündəmdə ayrıca bənd kimi müzakirə olunmasını tələb edirlər. MSK müxalifəti təmsil edən namizədlər tərəfindən edilən şikayətlərlə bağlı qərar çıxarılmasını lazımi qaydada təmin etmir.

ATƏT/DTİHO SMM-in uzun müddətli müşahidəçilərinin verdikləri məlumata əsasən bütün ölkə boyunca hüquqi və prosedur məsələlərin təfsiri ilə bağlı dairə seçki komissiyaları (DSK) və məntəqə seçki komissiyalarında (MnSK) geniş şəkildə çaşqınlıq və qeyri-müəyyənlik mövcuddur. Seçici vəsiqələrinin paylanması, hərbiçilərin səsverməsi məsələsi, MnSK-larının üzvlük məsələsi və şikayətlərə baxılması ilə bağlı uyğunsuzluqların olması və qanunun lazımı şəkildə tətbiq edilməsi müşahidə olunmuşdur. [1]

Seçici siyahıları

Seçki Məcəlləsinin 45-ci maddəsinə əsasən vahid seçicilər siyahısına dair məsuliyyət MSK-nın üzərinə düşür. MSK-nın Elektron İnformasiya Mərkəzi (EİM) isə dairələr tərəfindən təqdim edilən məlumat əsasında seçicilərin elektron informasiya bazasını yaratmağa məsuldur.[2] ATƏT/DTİHO SMM-in müraciətinə cavab olaraq həm MSK, həm də EİM müstəqil olaraq hər dairə üzrə qeydiyyatda olan seçicilərin sayı və hər dairəyə paylanmış seçici vəsiqələrinin sayı haqda məlumat göndərdilər. Bu məlumatlar bir-biri ilə çarpaz yoxlanıldıqda, seçici siyahılarında[3] uyğunsuzluqların olduğu və dairələrə paylanmış seçici vəsiqələrinin sayında mühüm anomal fərqlərin olduğu aşkar oldu.[4] Bundan əlavə, bu məlumatdan belə məlum olur ki, bəzi dairələrdə seçicilərin sayı orta hesabla qanunun qoyduğu tələbdən aşağıdır və bu da bərabər səsvermə prinsipinə uyğun gəlmir. [5]

---

1 Məsələn, 104 saylı DSK bildirmişdir ki, məhkəmə qərarı ilə qeydiyyata düşən seçicilərə seçici vəsiqəsi verilmir, lakin 109 saylı DSK bu məsələ ilə bağlı MSK-nın göstərişini gözlədiyini bildirmişdir. Nə 106 saylı DSK, nə də 96 saylı dairə üzrə məntəqələrin bir neçəsi paylanmış seçici vəsiqələrinin qeydiyyatını aparmır. 74 saylı DSK isə vəsiqəsini itirmiş seçicilərə yeni vəsiqə vermir. 86 saylı DSK-nın fikrincə isə, müəllimlər məntəqə komissiyasının üzvü ola bilməzlər və buna görə də öz məntəqə seçki komissiyalarının əksəriyyətinin tərkibini qeyri-qanuni hesab edirlər.

2 Seçki Məcəlləsinin 110 maddəsi.

3 Məsəl üçün, EİM-dən alınan məlumata əsasən 30 may 2005 tarixinə 50 saylı DSK-da qeydiyyatdan keçmiş seçicilərin sayı 31461 olmuşdur. MSK-nın verdiyi məlumata əsasən iyul ayında bu rəqəm 44179-a qalxmışdır. Oktyabr ayı üçün EİM-in yeni informasiya bazasında isə seçicilərin sayı 31158 nəfərdən ibarətdir.

4 Məsələn, 50 saylı DSK iyul ayında 45063 seçici vəsiqəsi almışdır. Əgər bu rəqəm EİM-in informasiya bazasında may ayına qeydiyyatdan keçmiş seçicilərin sayı ilə müqayisə edilsə, məlum olar ki, seçici vəsiqələri qeydiyyatdan keçmiş seçicilərin sayının 143 faizini təşkil edir və bu da qanunun müəyyən etdiyi 102 faizdən xeyli artıqdır.

5 Seçki Məcəlləsinin 29.3 maddəsinə əsasən dairələrin sərhədləri müəyyən edilərkən, hər dairə üzrə qeydiyyatdan keçmiş seçicilərin sayında fərq orta hesabla 10 faizdən yuxarı ya aşağı ola bilməz. 43 saylı dairədə bu fərq orta hesabdan 28 faiz yuxarı olduğu halda, 74 saylı dairədə 20 faiz aşağıdır.

MSK əməkdaşı bunu iyun ayında bəzi dairələrin ərazisində dəyişikliklər edilməsi ilə əsaslandırdı və bildirdi ki, bəzi hallarda seçici vəsiqələri yenidən paylanılmışdır. [6] MSK-nın hələ də hər dairə üzrə qeydiyyatda olan seçicilər və paylanmış seçici vəsiqələrinin sayı haqqında müvafiq və etibarlı məlumatın olmaması ATƏT/DTİHO SMM-də narahatlıqlar doğurur. SMM həm bu, həm də digər rəsmi məlumatları əldə etmək üçün yenidən müraciət etmişdir.

Vətəndaşlara yeni şəxsiyyət vəsiqəsinin paylanması prosesi ümumi şəkildə irəliləyiş əks etdirmir. Etibarlı məlumatlara görə şəxslər vəsiqəni əldə etmə prosesini sürətləndirmək üçün rüşvət verməli olurlar. [7] Bəzi rayonlarda polis şöbələri adi şəxsiyyət vəsiqələrinin paylanmasını dayandıraraq, yeni müraciət edənlərə müvəqqəti vəsiqə verir.[8] Seçkilərdə iştirak üçün etibarlı hesab edilsə də, təhlükəsizlik baxımından bu vəsiqələr adi şəxsiyyət vəsiqələrindən xeyli geri qalır. MSK-nın verdiyi informasiya bazasından məlum olur ki, yeddi DSK qeydiyyatda olan hər bir seçiciyə seçici vəsiqəsinin paylanmasını başa çatdırmışdır, lakin qalan DSK-lar vəsiqələrin paylanmasını hələ başa çatdırmayıb. Yeni şəxsiyyət vəsiqələrinin və seçici vəsiqələrinin paylanmasının uğursuz həyata keçirilməsi bütün ölkə miqyasında hüququ çatan vətəndaşların səs vermə hüququnu məhdudlaşdıra bilər. Seçici vəsiqələrinin səs vermək üçün zəruri olub-olmaması məsələsi hələ də aydın deyildir.

<u>Şikayət və müraciət halları</u>

Yüksək dövlət rəsmiləri ATƏT/DTİHO SMM-ə bildirmişlər ki, yerli icra orqanları qanunu və 11 may Prezident sərəncamını pozaraq seçki prosesinə müdaxilə etməkdə davam edirlər. İndiyə qədər MSK-da qeydiyyatdan keçmiş 437 şikayətin 1\4-i yerli icra və digər dövlət orqanlarının müdaxiləsi və qanun pozuntuları barədədir. Seçki komissiyalarının və cinayət prosesini həyata keçirən orqanlarının icra orqanları və namizədlər tərəfindən törədilən ciddi qanun pozuntularını cavablandırmaması və buna qarşı tədbir görməməsi seçki prosesinə nəzərəçarpacaq dərəcədə və mənfi təsir göstərmişdir.[9] İşlərə baxılmasında səhlənkarlıqlara yol verilməsi və gecikdirilməsi dairələrdə seçki ilə bağlı qanun pozuntularının baş verməsinə səbəb olmuş və qanunu pozanların cəzalandırılmaması qanun pozuntularının yenidən törədilməsinə şərait yaratmışdır.

MSK hələ ki, qeydiyyatdan keçmiş 437 şikayətin yalnız kiçik bir hissəsinə baxmışdır. Şikayətlərə baxılması ilə bağlı MSK-nın heç bir prosedur qaydaları yoxdur və bu barədə təlimat hazırlamamışdır. Aşağı səviyyəli komissiyalara şikayətlərə baxılması zamanı onlara hansı addımlar atmaları barədə istiqamətverici hər hansı bir sənəd verilməmişdir. Seçki Məcəlləsinin müddəalarına zidd olaraq komissiyaların qəbul etdiyi qərarların əksəriyyəti qanunda tələb olunduğu kimi əsaslandırılmış olmur. Hökumət Avropa Şurasının Venesiya Komissiyasının şikayətlərə baxılmasının tənzimlənməsi və yadımı istiqamətində etdiyi təklifi indi qəbul etmişdir.

Seçki Məcəlləsinin şikayətlərə baxılmasına aid müddəaları bir çox cəhətdən müəmmalıdır. Maddə 112 şikayətlərə baxılması ilə bağlı müxtəlif cür prosedur qaydaları kimi təfsir oluna bilər. Bir çox şikayətlər DSK-lara yox, birbaşa MSK-ya göndərilmişdir. Əvvəllər MSK bildirmişdir ki, qanuna uyğun olaraq, DSK-nın qərarı və ya DSK-nın fəaliyyətsizliyi və ya fəaliyyəti ilə bağlı şikayətlərə özü baxacaqdır. Ancaq demək olar ki, DSK-nın fəaliyyəti ilə

---

[6] ATƏT/DTİHO SMM indiyə qədər 44 bu cür dəyişiklik hallarını müəyyən etmişdir.

[7] ATƏT/DTİHO SMM Bakı, Cəlilabad, Lənkəran və Bərdədən məlumat verir.

[8] Müvəqqəti şəxsiyyət vəsiqəsi "7 No.-li forma" adlanır.

[9] DSK-lar tərəfindən bir neçə dərə xəbərdarlıq edilməsinə baxmayaraq, ATƏT/DTİHO SMM Seçki Məcəlləsinin 116-cı maddəsində nəzərdə tutulduğu kimi hər hansı digər cəza növünün tətbiq edilməsi faktından xəbərdar deyildir.

bağlı şikayətlər də daxil olmaqla bütün şikayətlər baxılması üçün aşağı komissiyalara göndərilmişdir.

Dövlət və yerli məmurların seçki prosesinə müdaxiləsi hallarının olmasına baxmayaraq, bu günə qədər bu istiqamətdə heç kim məhkəməyə cəlb olunmamışdır. Baş Prokurorluq iddia etmişdir ki, MSK özü şikayətlərlə bağlı ilkin tədqiqatlar aparmır, şikayətlərdə qanun pozuntusu olmasını yəqinləşdirmədən bütün şikayətləri prokurorluğa göndərir və bununla da Seçki Məcəlləsinin 112-ci maddəsini pozmuş olur. Lakin digər rəsmilər ATƏT/DTİHO-nə Baş Prokurorla razılaşmadıqlarını bildirmişlər və bu mübahisə seçki və dövlət məmurlarının davamlı olaraq cəzasız qaldıqlarından qanunu pozmağa davam etmələrinə imkan yaratmışdır.

SMM-də olan məlumata əsasən müstəqil və müxalifəti təmsil edən namizədlər tərəfindən edilən şikayətlərdən 14-ü (437-dən) DSK-da öz müsbət həllini tapmışdır. DSK-ların böyük əksəriyyəti şikayətlərə baxarkən qanuna əməl etməmişdir. 20 saylı dairədə qeydiyyatdan keçmiş namizəd komissiyaya göndərdiyi üç şikayətdən yalnız birinə cavab almışdır və prokurorluqdan heç bir cavab gəlməmişdir. Bir namizəd 90 saylı dairənin komissiyasına video yazısı təqdim etmək istədikdə, sədr video yazısını götürməkdən imtina etmiş və bildirmişdir ki, həmin yazı dəlil deyildir. Bəzi DSK-lar isə ATƏT/DTİHO SMM-ə inadla bildirirlər ki, onlara şikayət daxil olmamışdır, halbuki bu barədə sübutlar vardır. 33 saylı DSK-da seçiciləri geniş şəkildə xidmətlə təchiz edən, üstünlüyə malik YAP partiyasının namizədi barədə işi 2 həftə saxladıqdan sonra sədr gecikmiş xəbərdarlıq etmişdir.[10] Xəbərdarlığın isə heç bir nəticəsi görünmür.

Oktyabr ayının 21-də Konstitusiya Məhkəməsi Hacıağa Nuri barəsində MSK-nın verdiyi qərarı ləğv etdi. “Azərbaycan Naminə” seçki blokunun namizədi kimi irəli sürülən Hacıağa Nuri blokun sənədlərində İslam partiyasının nümayəndəsi kimi qeyd olunmuşdu (1-ci aralıq hesabata baxın). İslam partiyasının dövlət qeydiyyatına alınması Ədliyyə Nazirliyi tərəfindən rədd edilmiş və Milli Məclisə seçkilərə namizədlərini irəli sürməyə imkan verilməmişdir. Konstitusiya Məhkəməsinin qərarı cənab Nuriyə namizədliyini bərpa etməyə izn vermişdir.

## II. Seçki mühiti

<u>8 - 16 oktyabr</u>

Çoxlu sayda namizədlər öz rəsmi işlərindən istefa verməmişdir. Onlar xidməti və inzibati resurslardan istifadə edərək hər iki halda Məcəllənin 69-cu maddəsini açıqca pozurlar.[11] Məktəb direktorlarının və digər dövlət idarələrinin rəhbərlərinin öz işçilərindən imza toplamaları və müəyyən bir namizədə səs vermələri barədə söz almaları haqda etibarlı məlumatlar ATƏT/DTİHO SMM-ə daxil olmaqdadır. SMM eyni zamanda müəyyən bir namizədə səs vermələri üçün müəllim heyətinə və şagirdlərin valideynlərinə edilən təsir və hədə qorxunu həm müşahidə etmiş, həm də bu haqda məlumatlar almışdır.[12]

Bütün ölkə miqyasında namizədlərin yüzlərlə kiçik-həcmli görüşlər keçirməsinə baxmayaraq, kampaniya çoxlu sayda müxalifəti təmsil edən namizəd və partiya üzvlərinin polis tərəfindən həbs olunması ilə ciddi şəkildə pozulmuşdur. Tutulanlar ya qısa müddətə saxlanıldıqdan sonra buraxılmış, yaxud da adətən İnzibati Xətalar Məcəlləsinin 310-cu

---

[10] Namizədlər tərəfindən xidmətlərin pulsuz olaraq təchiz edilməsi barədə məlumatlar tez-tez daxil olur. Namizədlər yollara asfalt salınmasını və yaşayış binalarının təmirini maliyyələşdirir və ya öz dairələrində iftar süfrəsi təşkil edirlər.

[11] 2, 4, 65, 104 və 05 saylı dairələr.

[12] 34, 37, 44 və 56 saylı dairələr.

maddəsinə əsasən "polisə müqavimət göstərdiyi" üçün iki-üç həftəliyə həbs olunmuşdur[13]. Bəzi hallarda namizədlərin səlahiyyətli şəxsləri səfərdə olarkən, seçicilərlə görüşərkən yaxud plakatları paylayarkən həbs olunmuş yaxud incidilmişlər[14]. Jurnalistlərin, seçki komissiyaları üzvlərinin və namizədlərin qohumlarının saxlanması halları da baş vermişdir.

Hökumət və yerli icra orqanları tərəfindən toplaşma azadlığına qoyulan məhdudiyyətlər davam edir. 9 oktyabrda Azadlıq blokunun Bakıda təşkil etdiyi icazəsiz aksiya zamanı SMM polis və təhlükəsizlik qüvvələri tərəfindən nümayiş iştirakçılarına və jurnalistlərə qarşı qeyri-bərabər və heç bir səbəb olmadan gücün tətbiq olunduğu bir çox halları müşahidə etmişdir. Müxalifət partiyaları aksiya zamanı 100-dən çox saxlanılan adamın adlarını açıqladılar və 55 şəxsin zədə alması barədə xəbər verdilər. Ən azından iki namizəd ciddi zədə almış və üç namizəd saxlanılmışdı. Partiya üzvlərinin təhlükəsizlik orqanları tərəfindən müvəqqəti saxlanılaraq, şəhərin kənarına aparılması və orada buraxılması halları haqqında bir neçə dəfə məlumat daxil olmuşdur. Polis bildirmişdir ki, yalnız 30 nəfər saxlanılmış və 11 polis əməkdaşı zədə almışdır.

Müxalifətdən olan Azadlıq blokunun liderləri ölkənin qərb və mərkəzi rayonlarında kampaniya həyata keçirmişlər. Onlar polisin güclü və məhdudlaşdırıcı nəzarəti altında seçicilərlə görüşlər keçirməyə müvəffəq olmuşlar. [15] Çox hallarda polis digər yolla bu görüşlərə müdaxilə etməmişdir, lakin bir halda polis bayırda keçirilən görüşün baş tutmasına imkan verməmiş və güc vasitəsi ilə iştirakçıları görüş üçün ayrılmış və görüşə gələn iştirakçıları tutmaq üçün kifayət qədər iri olmayan balaca bir yerə sığmağa məcbur etmişdir.[16] ATƏT/DTİHO SMM-in müşahidəçiləri müşahidə etmişlər ki, Tovuz, Gədəbəy və Balakən rayonlarında polis yollarda hərəkəti dayandırmışdır və bu da çox güman ki, Azadlıq blokunun mitinqində iştiraka nəzarət edilərək qarşısının alınması üçün edilmişdir. İcra orqanları Azadlıq blokunun Ağcabədi rayonunda da mitinq keçirməsinə icazə verməmişlər. Adətən müxalifətdən olan namizədlər görüş keçirmək üçün nəzərdə tutulan yerlərdən hökumət meylli namizədlər kimi istifadə edə bilmirlər və digər namizədlərə görüş keçirməsinə icazə verilən yerlərdə bu namizədlərə görüş keçirməyə icazə verilmir. [17]

<u>17 - 21 oktyabr</u>

Hazırda xaricdə yaşayan və namizədliyini irəli sürmüş ADP-nin sədri cənab Rəsul Quliyev 17 oktyabr tarixində ölkəyə qayıtmağa cəhd etdikdə, bütün Azərbaycan ərazisində təhlükəsizlik əməliyyatı başlanmışdır.[18] Daxili İşlər Naziri "radikal müxalifəti" güc qüvvələrinə qarşı zorakılıq planları hazırlamaqda günahlandırdı və bütün ölkə ərazisində çoxlu sayda həbslər baş verdi. Bu müddətdə hərəkət azadlığına qarşı xeyli məhdudiyyətlər tətbiq edildi. Bütün ölkə ərazisində Azadlıq blokunu dəstəkləyən çoxlu şəxslər həbs edildi və

---

13 İnzibati Xətalar Məcəlləsinə əsasən məhkum olma və həbs etmə haqqında qərar polis məmurunun şifahi ifadəsi olmadıqda verilə bilər.

14 Oktyabr ayının 10-da Tovuz və Gəncədə iki fəal həbs olunmuşdur. 13 oktyabrda isə yerli Demokrat Partiyasının sədri Ağcabədidə həbs olunmuşdu. 16 oktyabrda 33 saylı dairədən müstəqil namizəd "cibgirlikdə şübhələndiyi üçün" həbs edilmişdir. Seçki Məcəlləsinə əsasən bu namizədin toxunulmazlıq hüququnun pozulmasıdır.

15 Müxalifətin lideri İsa Qəmbər Ağstafa rayonunda Qarabağ münaqişəsi veteranlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmək istəyərkən polis imkan verməmişdir. Yəqin ki, bu ziyarət onun kampaniya səfərinin cədvəlinə daxil aid olmadığı üçün baş vermişdir.

16 18 oktyabrda 109 saylı Balakən rayon dairəsində keçirilən aksiya ATƏT/DTİHO SMM tərəfindən müşahidə edilmişdir. Təşkilatçılara aksiyanı keçirmək üçün müvafiq yer verilməsindən imtina etmişlər.

17 ATƏT/DTİHO SMM 4, 10, 21, 38, 45, 51, 109 və 112 saylı dairələrdən xəbər verir.

18 Milli Məclisi keçmiş spikeri olmuş Rəsul Quliyev kütləvi halda dövlət əmlakını mənimsəməkdə ittiham edilir. Məhkəmələrin qərarına əsasən namizədlik statusu onun həbs olunmasının qarşısını almır. Səlahiyyətli şəxslər əvvəllər ictimaiyyət qarşısında bildirmişlər ki, əgər o, Azərbaycana qayıtsa, dərhal həbs olunacaqdır.

saxlanıldı və ya məhkəmə yolu ilə səfər etməsinə imkan verilmədi. Daxili İşlər Naziri təqribən 80-100 adamın saxlandığını bildirdi, lakin digər mənbələrin verdiyi məlumata əsasən yüzlərlə adam saxlanılmışdı. Bakıda cənab Quliyevi qarşılamaq üçün aeroporta gedən azı 30 adam barəsində İnzibati Xətalar Məcəlləsinə əsasən polisə müqavimət göstərdiyi üçün həbs qərarı verildi və digərləri cinayət törətməkdə ittiham edildi. [19] Cənab Quliyev Bakıda yox, Ukraynada yerə endi və endikdən sonra qısa müddətə saxlanıldı. Nəticədə Ukrayna məhkəmələri Azərbaycanın verdiyi həbs qərarını həyata keçirməkdən imtina etdilər.

Hökumət bu əməliyyatları hakimiyyətin güclə ələ alınması cəhdlərinin qarşını alması ilə əlaqələndirdi. 17 oktyabr hadisələrindən dərhal sonra isə iki nazir və Prezident aparatının işlər idarəsinin rəisi vəzifəsindən azad edildi. İqtisadi İnkişaf Naziri Fərhad Əliyev və Səhiyyə Naziri Əli İnsanov Rəsul Quliyevlə birgə hakimiyyəti güclə ələ almaq cəhdində şübhəli bilinərək həbs edildi. Keçmiş Maliyyə Naziri də eyni ittihamlar əsasında və müxalifətin icazəsiz aksiyalarını maliyyələşdirməkdə günahlandırılaraq həbs edildi.

Müxalifətin çağırışlarına qoşulan və Bakıya Rəsul Quliyevlə görüşməyə gedən adamlara gəlinən hədə-qorxu onlar rayonlara qayıtdıqdan sonra da davam etdi. 19 oktyabrda isə ciddi bir hadisə baş verməşdi, verilən məlumata əsasən Bakıda geri qayıdarkən Milli Məclisə seçkilərdə namizəd olan 4 nəfər və iki səlahiyyətli şəxs də daxil olmaqla Demokrat Partiyasının yeddi üzvü Naxçıvan aeroportunda bir neçə polis nəfəri tərəfindən götürülərək aeroportdan 10 km aralıda yerləşən yerə aparılmış, ATƏT/DTİHO SMM-in müşahidəçilərinə verilən məlumata görə möhkəm döyüldükdən sonra orda buraxılmışlar.

Namizədliklərin geri götürülməsi

21 oktyabra qədər Milli Məclisə seçkilərdə iştirak edən 116 namizəd öz namizədliyini geri götürmüşdür və bu rəqəmin böyük hissəsi heç bir partiyaya mənsub olmayan namizədlərin payına düşür. Bir çox hallarda namizədlərə öz namizədliklərini geri götürmələri üçün hədə-qorxu gəlinməsi barədə ciddi məlumatlar var. 40 və 42 sayıl dairələrdə iki namizəd tez-tez ölümlə hədələnmələrinə baxmayaraq, namizədliklərini geri götürmək üçün onlara edilən təzyiqlərə müqavimət göstərirlər.

## IV. Kütləvi İnformasiya Vasitələri

ATƏT/DTİHO SMM tərəfindən monitor edilən və dövlət tərəfindən maliyyələşdirilən televiziya kanalları pulsuz efir vaxtını dörd əsas siyasi partiya və bloklar arasında bərabər paylaşdırmaqda davam edirlər.

Lakin axşam saat 6-12 arasındakı əsas informasiya saatlarında dövlət kanalı olan AzTV-də efirə gedən xəbərlər və cari hadisələrə dair proqramlar açıq-aydın hazırda hakimiyyətdə olan qüvvələrin xeyrinə yayımlanır. Kampaniyanın ilk altı həftəsində AzTV əsas informasiya saatlarında efirə gedən siyasi və seçki ilə bağlı xəbər proqramlarının 97 faizini xaraktercə hədsiz dərəcədə müsbət olmaqla, hazırkı Prezidentin, hökumətin, prezidentin icra aparatının və YAP partiyasının fəaliyyətinin işıqlandırılmasına həsr etmişdir. Bunun əksinə olaraq, AzTV müxalifəti təmsil edən namizədlərin fəaliyyətini xəbər proqramlarında demək olar ki, işıqlandırmamaqda davam edir. [20] Nəticədə isə AzTV namizədlərə və siyasi partiyalara

---

[19] Rəsul Quliyevin qardaşı oğlu daxil olmaqla.

[20] Kampaniya başlayandan AzTV kanalında əsas informasiya saatlarında yayımlanan xəbər proqramlarının 1 saat 17 dəqiqəsi YAP partiyasına ayrılmışdır. Bununla müqayisədə, həmin vaxt ərzində Azadlıq blokunun payına cəmi 19 dəqiqə düşmüşdür. ATƏT/DTİHO SMM-in qiymətləndirmələrinə bu işıqlandırmanın da əsasən 73 faizi mənfi tonda olmuşdur.

bərabər imkanların yaradılmasını nəzərdə tutan Seçki Məcəlləsinin müddəalarını və ATƏT-in öhdəliklərini yerinə yetirə bilməmişdir. [21]

Müxalifətdən olan namizədlərin KİV vasitəsi ilə kampaniya keçirmə imkanları pulsuz və ödənişli siyasi reklamlar çərçivəsi ilə məhdudlaşır. 17 oktyabrda AzTV Azadlıq blokundan olan namizədlərin çıxışlarının canlı yayımlanmasını qadağan etdi. AzTV belə hesab etdi ki, bu çıxışların bəzilərində Seçki Məcəlləsinin ziddinə olaraq hökuməti zor vasitəsi ilə dəyişmək haqda çağırışlar olmuşdur.[22] Əvvəlki qaydanın – ödənişli və pulsuz əsaslarla edilən çıxışların canlı yayımlanmasının - əksinə olaraq AzTV təkid etdi ki, bütün yayımlanmanı əvvəl yazıb sonra efirə verəcəkdir (məzmununu yoxlamaq məqsədi ilə). Azadlığı təmsil edən namizədlər AzTV-nin bəyanatını inkar edərək bildirdilər ki, AzTV tərəfindən bu cür "senzuranın" tətbiq edilməsi müxalifətdən olan namizədlərin kampaniya imkanlarını daha da məhdudlaşdıracaq.

18 oktyabr tarixində Azadlıq bloku AzTV-nin digər namizədlərin çıxışlarının heç bir məhdudiyyət qoyulmadan canlı yayımlanması (bu hallardan ən azı birinin doğruluğu SMM tərəfindən təsdiq edilmişdir) və bununla da kampaniya zamanı namizədlərə bərabər imkanların yaradılması şərtini pozması barədə rəsmi olaraq MSK-ya şikayət etmişdir. 20 oktyabrda keçirilən iclasında isə MSK ya bu şikayətə baxmamış yaxud da bu şikayət barəsində heç bir qərar qəbul etmədən, onu özünün KİV üzrə işçi qrupuna yönəltmişdir. [23] AzTV Azadlıq blokunun efir vaxtının canlı yayımı üzərində qoyduğu qadağanı nəhayət üç gün sonra götürmüşdür. Göründüyü kimi MSK bu şikayətə baxmamışdır.

AzTV kanalında olduğu kimi, İctimai televiziya (İTV) da əsas informasiya saatlarında yayımlanan xəbər proqramlarının böyük qismini (68 faiz) müstəsna olaraq müsbət yaxud neytral tonda olmaqla hazırkı Prezidentə, hökumətə və YAP partiyasına həsr etmişdir. Bu proqramlarda Azadlıq blokuna ayrılan vaxt cəmi 23 faiz təşkil etmişdir və bunun da mahiyyətcə cəmi 1 faizi ATƏT/DTİHO SMM tərəfindən müsbət qiymətləndirildiyi halda, 53 faizi mənfi tonda olduğu hesablanmışdır. Buna baxmayaraq, İctimai televiziya efirə verdiyi siyasi və analitik proqramları vasitəsi ilə tamaşaçılara AzTV-yə nisbətən daha artıq siyasi məlumat çatdırmaqda davam edir.

Özəl kanallar olan Lider TV, Space TV və ATV daha çox İctimai televiziyanın tutduğu siyasi favoritzm xəttinə bənzər xətt nümayiş etdirirlər. Bundan əlavə Lider kanalı əsas informasiya saatlarında efirə gedən xəbərlər zamanı müxalifətdən olan namizədlərin nüfuzuna xələl gətirən məlumatlar da yayımlayır.

*ANS* ümumilikdə kampaniyanın işıqlandırılmasını daha tarazlı şəkildə həyata keçirən yeganə kanal olmaqda davam edir. SMM tərəfindən müşahidə edilən digər yayım orqanları kimi, bu kanal da əsas informasiya saatlarında yayımlanan xəbərlər proqramının böyük hissəsini hazırkı prezidentə və hökumətə həsr etmişdir. Bu yayımlanma da mahiyyəti etibarı ilə ya müsbət yaxud da neytral xarakter daşımışdır. Lakin monitor edilmiş digər televiziya kanallarından kəskin şəkildə fərqlənərək ANS-in YAP partiyası və Azadlıq blokuna əsas informasiya saatlarında ayırdığı vaxt təqribən bərabər olmuş və mahiyyət etibarı ilə müsbət və ya neytral xarakter daşımışdır.

---

21 Seçki Məcəlləsinin 69.1 və 77.1 maddələri və ATƏT-in Kopenhagen Sənədinin 7.8 paraqrafı

22 Seçki Məcəlləsinin 88.1 maddəsi

23 MSK-nın öz üzvlərindən və müxtəlif KİV qurumlarının jurnalistlərindən ibarət xüsusi KİV üzrə işçi qrupu vardır və bu qrup komissiyanın işinə yardım edir. Qrupun ATƏT/DTİHO SMM-ə verdiyi məlumata əsasən axırıncı işçi iclası sentyabr ayında keçirilmişdir.

Dövlət tərəfindən maliyyələşdirilən qəzetlər öz səhifələrində namizədlərə pulsuz və ödənişli reklam yeri ayırmaqda davam edirlər. Lakin hazırda hakimiyyətdə olan qüvvələrin xeyrinə qərəzli mövqelərini açıq-açığına göstərirlər. Misal üçün, *Azərbaycan* qəzetində işıqlandırılan seçki və siyasi məsələlərin 90 faizi müstəsna müsbət tonda olmaqla hazırkı Prezident, hökumət və YAP partiyasından bəhs edir. Monitor edilən və dövlət tərəfindən maliyyələşdirilən digər iki qəzet – *Respublika və Xalq Qəzeti* də eyni qayda ilə fəaliyyət göstərirlər.

Bunun tam əksi olaraq, müxalifətin mövqeyindən çıxış edən qəzetlər müxalifətdən olan namizədlərə platforma rolu oynayaraq, hakim qüvvələri tənqid etməkdə davam edir. ATƏT/DTİHO SMM tərəfindən monitor edilən *Zerkalo* müstəqil qəzeti kampaniyanı daha tarazlı şəkildə əhatə edən qəzetdir.

Jurnalistlərə qarşı edildiyi təsdiq olunan zorakılıq və hədə-qorxu halları da KİV mühitinə öz təsirini göstərmişdir. Bu cür hallar fiziki və söz hücumlarını ehtiva edir. 9 oktyabr tarixində müxalifət tərəfindən keçirilən aksiya zamanı qeyri-müəyyən şəxslər mavi Press gödəkcəsi geyinməsinə baxmayaraq, Zerkalo qəzetinin jurnalistinə hücum edərək ona xətər yetirmişlər. 11 oktyabrda isə bir jurnalist və iki digər şəxs Bakıda nəşriyyat evlərindən birinin bayırında tanımadıqları adamlar tərəfindən döyülmüşlər. Nəticədə isə polis həmin iki əməkdaşı ilə birlikdə jurnalisti həbs etmiş və hər üç nəfər polisə qarşı müqavimət göstərməkdə günahlandırılaraq 15 günlüyə azadlıqdan məhrum edilmişlər. Bu zaman beynəlxalq və yerli media təşkilatları seçki gününə yaxın bir zamanda KİV-in müstəqilliyinə qarşı yönəldilmiş təhlükənin artması və jurnalistlərə xətər yetirilməsi ilə bağlı narahatlıqlarını bildirmişlər. [24]

## V. SMM-in fəaliyyəti

ATƏT/DTİHO SMM rəsmi orqanlarla, vətəndaş cəmiyyətindən olan qruplarla, KİV və Milli Məclisə namizədlərlə görüşlərini davam etdirmişdir. Missiyanın rəhbəri Xarici İşlər Naziri, Prezident Aparatı və Mərkəzi Seçki Komissiyası ilə müntəzəm dialoqlarını davam etdirmiş və Daxili İşlər Naziri ilə görüş keçirmişdir. Missiyanın rəhbəri Lənkəran, Masallı və Salyan rayonlarına işçi səfərləri etmiş və ayrı-ayrılıqda Şəki və İsmayıllı rayonlarında olmuşdur. SMM ATƏT-ə üzv olan dövlətlərin diplomatik missiyaları üçün iki həftədən bir keçirilməsi nəzərdə tutulan üçüncü brifinqini təşkil etmişdir.

Dörd Parlament Asambleyasından (Avropa Parlamenti, NATO-nun Parlament Asambleyası, ATƏT-in Parlament Asambleyası və Avropa Şurasının Parlament Asambleyası) olan 150 müşahidəçi də daxil olmaqla, 600-dən artıq qısa-müddətli müşahidəçilərin yerləşdirilməsi ilə bağlı işlər davam etdirilmişdir. Seçki məntəqələrində səsvermə və sayılma proseslərini müşahidə etməkdən əlavə, bütün ölkə ərazisində DSK-lara müşahidəçi qruplar göndəriləcək ki, bu müşahidəçilər məntəqələrdə nəticələrin hesablanmasını və MSK-ya ötürülməsini müşahidə edəcəklər. ATƏT/DTİHO SMM Azərbaycandakı parlament seçkiləri ilə eyni vaxtda keçirilən Naxçıvan Muxtar Respublikasının Məclisinə seçkiləri müşahidə etməyəcəkdir.

[24] Article 19 və Reporters Sans Frontiers tərəfindən verilən bəyanatlar (birgə 4 bəyanat) və Jurnalistlərin Müdafiəsi üzrə RUH Komitəsinin bəyanatları (3 bəyanat).